# Rusiya Müdafiə Nazirliyi general-mayor Həzi Aslanov haqqında materiallar dərc edib

Rusiya Müdafiə Nazirliyi "Qranitdə əbədiləşdirilən adlar" tarixi-maarifləndirici layihəsi çərçivəsində Stalinqrad döyüşündə qələbənin qazanılmasında əvəzsiz xidmətləri olan iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru, azərbaycanlı Həzi Aslanovun qəhrəmanlıq şücaətindən bəhs edən materiallar dərc edib.






AZƏRTAC xəbər verir ki, nəşrdə 1942-ci ilin dekabrında polkovnik-leytenant Həzi Aslanovun komandanlığı ilə 55-ci Əlahiddə tank alayının Stalinqrad yaxınlığında mühasirəyə alınmış vermaxtın 6-cı ordusunu yarıb keçməyə çalışan "Don" alman qoşun qrupuna uğurla müqavimət göstərdiyi qeyd edilib. Azərbaycanlı komandirin tabelində olan və diqqətlə kamuflyaj edilmiş pusqulardan fəaliyyət göstərən tankçılar düşmənin 50-yə yaxın tankını məhv ediblər. Həzi Aslanovun alayı şiddətli hava hücumlarına tab gətirib və mühasirədən sonuncu xilas ola bilib. Bu döyüşlərə görə Həzi Aslanov Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Daha sonra, 1944-cü ilin yayında general-mayor Həzi Aslanov Belarusun işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə yenidən fərqlənib və ikinci "Qızıl Ulduz" qəhrəman mükafatına namizəd göstərilib. Lakin 1945-ci il yanvarın 24-də Latviyada aldığı ağır yara onun üçün ölümcül olub və səhra xəstəxanasında dünyasını dəyişib. İkinci Sovet İttifaqı Qəhrəmanı adı ona ölümündən sonra, 1991-ci ildə verilib.

Əfsanəvi komandirin xatirəsi bir sıra şəhərlərdə - Bakıda, Lənkəranda, Belarusun Vileykasında, Volqoqradda əbədiləşdirilib.

Azərbaycan.- 2025.- 25 aprel (№ 82).- S.12.